**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin**
**İctimai Yardım Assosiasiyası**
**(MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association**
**of Youth of Azerbaijan**
**(EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

**PRES-RELİZ – 2020**

MAGİYA ictimai birliyi 2020-ci il ərzində müxtəlif hökümət, qeyri-hökümət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi tərəfindən cənub bölgəsində **“COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində sağlam həyat tərzinin təbliği”** adlı layihə icra olunmuşdur. Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 7000 (yeddi min) manatlıq maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Layihənin məqsədi COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində ictimaiyyətin məlumatlandırılması, onların zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla təmin edilməsi və sağlamlıq baxımından əziyyət çəkən müvafiq aztəminatlı ailələrə ərzaq yardımı paketləri paylamaqla, cəmiyyətdə sağlam həyat tərzini geniş təbliğ etməkdən ibarət olmuşdur. Layihənin müddəti 3 ay olmaqla, 05 avqust – 05 noyabr 2020-ci il tarixlərini əhatə etmişdir. COVİD-19 pandemiyası ilə mübarizədə əhali arasında sağlam həyat tərzinin təbliğini özündə ehtiva edən layihə çərçivəsində Lənkəran, Masallı, Astara və Cəlilabad rayonlarının hər birində 3 nəfər 18-29 yaşarası könüllü gənc müəyyən edilmiş, onlar üçün pandemiya dövründə davranış qaydalarına dair təlimat hazırlanmış, aidiyyəti sahədə bukletlər də daxil olmaqla, həmin könüllülər zəruri gigiyenik vasitələr (dezinfeksiyaedici gel, spirt və s.) və tibbi ləvazimatlarla (maska, əlcək və s.) təmin olunmuşdur. Təlimatlandırılmış və zəruri materiallarla təchiz edilmiş gənclər tərəfindən Lənkəran, Cəlilabad, Masallı və Astara rayonlarındakı ictimai yerlərdə sakinlərə müvafiq bukletlər, müxtəlif gigiyenik vasitələr və tibbi ləvazimatlar paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri aparılmışdır. Eyni zamanda sözügedən hər bir rayonda ictimai monitorinqlər aparılmaqla, sağlamlıq baxımından əziyyət çəkən 20 aztəminatlı ailə müəyyən edilmiş və onlara birbaşa zəruri ərzaq yardımı paketləri təqdim edilmişdir. Belə ki, 03 oktyabr 2020-cil il tarixində ***COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində*** *Lənkəran şəhərinin Qala Xiyabanı küçəsi, Şirəli Axundov küçəsi və Həzi Aslanov Xiyabanı küçəsində* yerli sakinlər arasında 1200 ədəd tibbi maska, 250 ədəd buklet və 50 ədəd dezinfeksiyaedici gel paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri həyata keçirilmişdir. Bununla yanşı, şəhər və rayon (Vilvan kəndi, Təzə Digah kəndi) ərazisində yaşayan və sağlamlıq imkanları məhdud olan 5 aztəminatlı ailəyə də zəruri ərzaq yardımı paketləri təqdim edilmişdir. Sonda layihədə könüllü fəaliyyət göstərən ümumilikdə 12 nəfər gənc təşkilat tərəfindən xüsusi qısaqol köynəklərlə və müvafiq sertifikatlarla təltif olunmuşdur.





2. 10 oktyabr 2020-cil il tarixində ***COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində*** *Masallı şəhərinin Heydər Əliyev prospekti və Bazar adlanan sahədə* yerli sakinlər arasında 1200 ədəd tibbi maska, 250 ədəd buklet və 50 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri həyata keçirilmişdir. Bununla yanşı, şəhər və rayon (Ərkivan qəsəbəsi, Bədəlan kəndi, Qızılağac kəndi) ərazisində yaşayan və sağlamlıq imkanları məhdud olan 5 aztəminatlı ailəyə də zəruri ərzaq yardımı paketləri təqdim edilmişdir.





3. 17 oktyabr 2020-cil il tarixində ***COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində*** *Astara şəhərinin İstiqlaliyyət küçəsi və Bazar adlanan sahədə* yerli sakinlər arasında 1200 ədəd tibbi maska, 250 ədəd buklet və 50 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri həyata keçirilmişdir. Bununla yanşı, rayon (Tüləgüvan, Ojakəran, Ağkörpü və Sım kəndləri) ərazisində yaşayan və sağlamlıq imkanları məhdud olan 5 aztəminatlı ailəyə də zəruri ərzaq yardımı paketləri təqdim edilmişdir.





4. 24 oktyabr 2020-cil il tarixində ***COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində*** *Cəlilabad şəhərinin Heydər Əliyev prospekti, Heydər Əliyev Seyrangahı və Heydər Əliyev Parkında* yerli sakinlər arasında 1200 ədəd tibbi maska, 250 ədəd buklet və 50 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri həyata keçirilmişdir. Bununla yanşı, şəhər və rayon (Göytəpə şəhəri, Uzuntəpə kəndi) ərazisində yaşayan və sağlamlıq imkanları məhdud olan 5 aztəminatlı ailəyə də zəruri ərzaq yardımı paketləri təqdim edilmişdir.





*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*30 dekabr, 2020-ci il*